**Mirzə M.** Aprel döyüşlərində başladığımız işi tam başa çatdırıb qayıdacağam // Respublika. - 2024. - 25 avqust. - **№ 182**. - S. 14.

**44 günlük Vətən müharibəsində Xalq, Ordu və Ali Baş Komandanın birgə mübarizəsi qələbəni şərtləndirən əsas amil oldu. Şəhidlik məqamına yüksələn oğullarımız şərəf və qürur mənbəyimizdir. Onların qəhrəmanlığı əbədi olaraq xalqımızın qəlbində yaşayacaq, gələcək nəsillərə örnək olacaqdır. Xalqımız öz qəhrəmanları ilə fəxr edir.**

Eyvazov Əbülhəsən Balaş oğlu 1 noyabr 1996-cı ildə Kürdəmir rayonunun Mollakənd kəndində anadan olub. Ailənin kiçiyi, iki bacının bir qardaşı idi. Əbülhəsən hələ körpəykən ailəsi Bakıya - Nardaran qəsəbəsinə, bir neçə il sonra isə Bakı şəhəri, Xətai rayonu, "NZS" qəsəbəsinə köçüb. 2003-cü ildə Əbülhəsən qəsəbədə yerləşən 165 saylı orta məktəbin 1-ci sinifinə qəbul olunub. 2014-cü ildə orta məktəbi bitirdikdən sonra oktyabr ayında hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə keçib. Əsgərlikdə olduğu vaxtlarda hərbçi yoldaşları arasında hörmət qazanıb. Hərbi hissə komandiri Əbülhəsənin atasına bu cür ləyaqətli övlad böyütdüyü üçün təşəkkür edib.

2016-cı ilin aprel ayında hərbi xidmətdən tərxis qərarının çıxmasına baxmayaraq, Aprel döyüşlərinin başlanması ilə əlaqədar Əbülhəsənin ordudan tərxis olunması aprel ayının sonuna qədər ləngiyib və o, döyüşlərdə iştirak edib. Bu döyüşlərdə qəhrəmanlıq göstərən Əbülhəsən əməliyyatlar bitdikdən sonra xidmətini başa vurub, fəxri fərmanla təltif olunaraq evə qayıdıb. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət fərqli sahələrdə çalışıb.

Əbülhəsən böyrək xəstəsi olan, fəhləliklə ailəsini dolandıran atasının ağır işlərə getməsini istəmirdi: "İndiyədək çox əziyyət çəkmisən, indi sən dincəl, mən işləyəcəyəm" deyirmiş. Çətinliklə olsa da, öz zəhməti ilə ailəyə dəstək olurdu. Əbülhəsən evlənmək istəyirdi, sevdiyi qız da var idi. Ev tikdirməyə hazırlaşırdı. Son vaxtlar öz arzularından, xəyallarından, planlarından tez-tez danışırdı...

Lakin ən vacib olan Vətənin çağırışı idi və Əbülhəsən də 2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xətai rayon idarəsindən gələn çağırışla səfərbərliyə alınıb. Dostları ilə görüşüb ayrılanda "inşallah Aprel döyüşlərində başladığımız işi tam şəkildə başa çatdırıb qayıdacağam", - deyib.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edib. Atası Balaş kişi də arxa cəbhədə orduya dəstək kampaniyasına qoşulub. O, şəxsi avtomaşını ilə cəbhə bölgəsinə ərzaq daşıyır, qələbə naminə əlindən gələn köməkliyi göstərməyə çalışırdı. Füzulinin cəbhəyanı kəndlərində hamı onu arxa cəbhənin ən fəal könüllüsü kimi tanıyırdı.

Ailəsi Əbülhəsənlə sonuncu dəfə sentyabrın 28-də danışıb. "Hər şey yaxşıdır, heç bir çətinlik yoxdur. Buraların təbiəti çox xoşuma gəlir, gözəl yerlərdir, müharibə başa çatandan sonra burada qalıb yurd salacağam", - deyib. Bu, Əbülhəsənin Vətən müharibəsində evlərinə son zəngi, son telefon danışığı olub... Həmin zəngdən bir gün sonra Balaş kişi həm oğlundan xəbər tutmaq, həm də əsgərlərimizə dəstək olmaq üçün yenidən cəbhəyə yollanıb. Füzuli istiqamətində gedən qızğın döyüşlər vaxtı oğlu barədə heç bir məlumat ala bilməyən Balaş Eyvazov narahat olmağa başlayıb. Yalnız düşmən qüvvələri məğlubiyyətə uğrayıb, geri çəkildikdən sonra döyüş meydanında qəhrəmancasına həlak olan əsgər və zabitlərin nəşini çıxarmaq mümkün olub. Oktyabrın 28-də döyüş mövqeyindən çıxarılan şəhidlərin arasında ata öz oğlunu tanıyıb. Məlum olub ki, Əbülhəsən Füzuli rayonu ərazisində yerləşən "bunker" adlanan yerə yaxın ərazidə gedən döyüşlərdə son nəfəsinədək qəhrəmancasına döyüşərək şəhid olub.

Oktyabrın 29-da onun nəşini Bakıya gətiriblər. Vətən fədaisi ertəsi gün Suraxanı rayonu ərazisindəki "Dədə Qorqud" qəbiristanlığında dəfn edilib. Şəhidimiz müharibəyə yollanmamışdan 2 ay əvvəl özünə maşın da alıb. Şəhid olandan sonra atası maşını satmaq istəsə də, anası razı olmayıb, "Oğlumun maşını qapıda, gözümün qabağında qalsın", - deyib.

Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamları ilə Eyvazov Əbülhəsən Balaş oğlu ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.